

# Rejissorun yüksəlişi

**İbrahimov Əjdər Mütəllim oğlu 1919-cu il aprel ayının 29-da Türkmənistanın Aşqabad şəhərində fəhlə ailəsində anadan olmuşdur.**

**Əjdər İbrahimov - 90**

Səkkiz yaşında atasını itirdiyindən kərpic zavodunda fəhləlik etmiş, 11 yaşında orta məktəbə daxil olmuş, məktəbin özfəaliyyət dərnəyində ciddi çalışmışdır. 1937-ci ildə Aşqabadda Azərbaycan Musiqili-Dram Teatrında aktyorluq etmiş, eyni zamanda teatr məktəbində təhsil almışdır.

Ə.İbrahimov 1942-ci ilin martında ordu sıralarına çağrılmışdır. Aşqabadda piyada hərbi məktəbi, sonra əlahiddə zabitlər məktəbini leytenant rütbəsi ilə bitirmişdir. İkinci Dünya müharibəsində yaralandığına görə 1945-ci ildə ordudan tərxis olunmuşdur. Bundan sonra 1945-1946-cı ildə Türkmənistan Dövlət Filarmoniyasında direktor müavini vəzifəsində çalışmışdır. 1946-1952-ci illərdə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Rejissorluq fakültəsində təhsilini davam etdirmişdir. Bir müddət Aşqabad kinostudiyasında işləmiş, "Firuzə" (1953), "Xəzərin şərqində" (1953), bir sıra mənzərə filmlərinin rejissoru olmuşdur. Sonra 1954-1959-cu illərdə Bakı Kinostudiyasında fəaliyyəti dövründə "Bir məhəlləli iki oğlan", "Onun böyük ürəyi" bədii filmlərini çəkmişdir. Sonralar çəkdiyi "26 Bakı Komissarı" (1966), "Ulduzlar sönmür" (1960), "Ürək məsələləri" (1973), "Məhəbbətim, kədərim mənim" (1978) filmləri onun kino rejissoru kimi yüksəlişini göstərir.

Vyetnam Demokratik Respublikasında ezamiyyətdə olduğu müddət ərzində ilk milli kino məktəbinin yaradılmasında, milli aktyor və rejissor kadrlarının hazırlanmasında fəal iştirak etmişdir. O, 1959-1962-ci illərdə kino sənəti məsələləri üzrə məsləhətçi və Hanoy kino məktəbində müəllim olmuşdur. Burada onun rəhbərliyi və yaxın köməyi ilə "Bir payız günündə", "Cüllüt" (1962), "İki əsgər" filmləri çəkilmişdir. 1962-ci ildən "Mosfilm" kinostudiyasında quruluşçu rejissor işləyir. "Mosfilm" kinostudiyası baş bədii şurasının üzvü, rejissorlar bölməsinin sədri olmuşdur.

Ə.İbrahimov Moskva Mədəniyyət İnstitutunda kinorejissorluq üzrə müəllim, "Azərbaycanfilm" kinostudiyasında bədii rəhbər, "Türkmənfilm" və "Qazaxfilm"in çəkdikləri bir sıra filmlərin bədii rəhbəri olmuşdur.

Bədii yaradıcılığa 1948-ci ildə "Türkmənistan" jurnalında çap etdirdiyi "Möcüzə" hekayəsi ilə başlamışdır. Bundan sonra hekayə, oçerk, povest və ssenarilərini rus, türkmən və azərbaycan dillərində yazıb yaratmışdır.

Əjdər İbrahimov xidmətlərinə görə 1971-ci ildə "Şərəf nişanı", 1976-cı ildə "Qırmızı Əmək Bayrağı", 1979-cu ildə "Xalqlar dostluğu" ordenləri ilə, eləcə də 1962-ci ildə Vyetnamın II dərəcəli "Əmək ordeni" və "Dostluq" medalı ilə təltif edilmişdir.

● **Samirə EMİNOVA**